# Ədliyyə və məhkəmə orqanlarında islahatların əsasında insan amili dayanır

**Milli ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini və onun şanlı keçmişini özündə əks etdirən zəngin tarixi var. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilmiş, 1918-ci ilin noyabr ayının 22-də onun əsasnaməsi qəbul edilmişdir.**

Azərbaycanda digər həyati əhəmiyyətli sahələrdə olduğu kimi, ədliyyədə də ardıcıl və sistemli islahatların aparılması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Böyük strateq Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi tarix - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü elan olunmuşdur.

Ümummilli lider müstəqil respublikamızın hüquq sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması və müasirləşdirilməsi baxımından ədliyyə orqanlarında mütərəqqi islahatları təmin etmiş, ədalət mühakiməsinin keyfiyyətcə yüksəlməsinə, hər bir fərdin maraq və mənafeyinin təmin olunduğu ədalətli cəmiyyətin formalaşmasına səylə çalışmışdır. Son 22 ildə Ədliyyə Nazirliyində yeni dövrün tələblərindən irəli gələn islahatların aparılması, ədliyyə orqanlarının iş üsulunun və vasitələrinin daha da yaxşılaşdırılması, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin yüksəldilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində, habelə ədliyyə fəaliyyətinin digər müxtəlif sahələri üzrə zəruri tədbirlər həyata keçirilmişdir.

Bu sahədə islahatları inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev hüquqi dövlət quruculuğu prosesində müstəsna xidmətləri olan Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinin, statusunun, cəmiyyətdəki rolunun və mövqeyinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin etmişdir. Azərbaycan Respublikası Prezidentinin “Ədliyyə orqanlarının inkişafı haqqında” 17 avqust 2006-cı il tarixli fərmanı, habelə 18 aprel 2006-cı il tarixli “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”, 26 may 2006-cı il tarixli “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanunu, 2009-cu il 6 fevral tarixdə təsdiqlənmiş “Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı” və digər sənədlər Azərbaycan ədliyyə sisteminin müasirləşdirilməsini, onun cəmiyyət həyatında mühüm dövlət təsisatına çevrilməsini təmin etmişdir.

Ədliyyə sistemində islahatların mühüm istiqamətlərindən biri kimi son 12 ildə məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi tədbirlərini də xüsusi qeyd etmək lazımdır. Prezident kimi fəaliyyətə başlamasının ilk günlərindən ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkədə məhkəmə sisteminin müasirləşdirilməsi, mövcud nöqsanların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülmüşdür. 2004-cü ildən Avropa Şurası ekspertlərinin yaxından iştirakı ilə məhkəmə orqanlarının fəaliyyətini tənzimləyən bir sıra normativ-hüquqi sənədlərin hazırlanması - “Məhkəmələr və hakimlər haqqında” qanuna əlavə və dəyişikliklər edilməsi, “Məhkəmə-Hüquq Şurası haqqında” qanunun qəbulu, “Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə”nin, “Vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi Qaydaları”nın təsdiqi, nəhayət, Hakimlərin Seçki Komitəsinin yaradılması bütövlükdə ölkədə məhkəmə-hüquq sisteminin daha da təkmilləşdirilməsi baxımından prinsipial siyasi iradə nümayişi kimi dəyərləndirilməlidir.

Ölkənin dinamik inkişafının keyfiyyətcə yeni mərhələsində məhkəmə hakimiyyətinin özünüidarə imkanlarının təmin edilməsi, hakimlərlə bağlı təşkilati-hüquqi məsələlərin kompleks həlli baxımından yeni qurumun yaradılmasına ehtiyac duyulurdu. “Məhkəmə-Hüquq Şurası haqqında” qanunun qəbulu və 2005-ci ilin fevralından Məhkəmə-Hüquq Şurasının fəaliyyətə başlaması məhz bu zərurətlə şərtlənərək məhkəmə-hüquq islahatlarında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Bu ilin fevralında fəaliyyətə başlamasının 10 ili tamam olmuş Məhkəmə-Hüquq Şurası ölkə rəhbərliyinin fərman və sərəncamlarından irəli gələn vəzifələrin həlli, habelə məhkəmə orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun müasirləşdirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirmişdir.

Son illərdə əhalinin məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmə, o cümlədən regional apelyasiya məhkəmələri təsis edilmişdir. Dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları bu istiqamətdə yeni mühüm mərhələ olmuşdur. Bu fərmanların icrası ilə bağlı ölkədə 4 yerli ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə fəaliyyətə başlamışdır.

Xüsusi vurğulamaq istərdik ki, vətəndaş-məmur münasibətlərində yaranan mübahisələrin qısa zaman çərçivəsində çevik həllinə imkan verən inzibati-iqtisadi məhkəmələrin yaranması və 2011-ci il yanvarın 1-dən inzibati işlərə məhz yeni yaradılmış həmin məhkəmələrdə baxılması Azərbaycan məhkəmə sistemi üçün tamamilə yeni hadisədir. Bu yenilik inzibati xarakterli mübahisələrin ixtisaslaşmış birinci instansiya məhkəmələri tərəfindən tam, hərtərəfli, obyektiv araşdırılmasına, ədalətlə və sırf qanuna uyğun olaraq baxılmasına, ümumilikdə isə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edir.

Son illərdə məhkəmələrdə iş yükünün çoxluğu nəzərə alınaraq, Məhkəmə-Hüquq Şurasının təklifi ilə hakimlərin sayı 50 faiz, məhkəmə aparatı işçilərinin sayı 75 faizədək artırılmış, hər bir hakim üçün əlavə köməkçi ştatı təsis olunmuşdur. Hakimlərin seçiminə diqqət gücləndirilmiş, 2008-2012-ci illərdə şəffaf və obyektiv imtahanlar nəticəsində uğur qazanmış 307 nəfər hakim təyin olunmuşdur. Məhkəmə islahatları nəticəsində hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) öz hesabatında Azərbaycanda məhkəmə islahatlarına göstərilən diqqəti Avropa dövlətləri sırasında fərqləndirərək yüksək qiymətləndirmişdir.

Onu da bildirək ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 26 oktyabr 2015-ci il tarixli “Bir sıra birinci instansiya hakimlərinin və Ağstafa Rayon Məhkəməsi sədrinin təyin edilməsi haqqında” sərəncamı ilə bir sıra ümumi yurisdiksiyalı, habelə inzibati-iqtisadi məhkəmələrə yeni hakimlərin və məhkəmə sədrinin təyinatları olmuşdur. Məhkəmə-Hüquq Şurasının təqdimatı əsasında gerçəkləşən bu təyinatlar məhkəmələrin normal iş fəaliyyətinin təminatına xidmət edir.

Məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması, hakimlərin müasir informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən istifadə imkanlarının yaradılması ümumən ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə, korrupsiyaya qarşı mübarizəyə xidmət etmişdir. Son illərdə Bakının Yasamal və Sabunçu rayonlarında, habelə Gəncə, Oğuz və Gədəbəydə məhkəmə binaları istifadəyə verilmişdir. Bir neçə gün əvvəl isə Şəki Məhkəmə Kompleksinin açılışı olmuşdur.

Noyabrın 4-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin Şəki Məhkəmə Kompleksinin inzibati binasının açılış mərasimində iştirakı və dərin məzmunli nitqi məhkəmələrin maddi-texniki bazasının, iş şəraitinin yaxşılaşdırılması tədbirlərinin ardıcıl və sistemli xarakter daşıdığını göstərir.

Ümumilikdə Dünya Bankı ilə birgə reallaşdırılan layihə çərçivəsində 40-dək məhkəmə binası müasir standartlara uyğun layihələndirilmiş, qısa müddətdə 11 məhkəmə üçün yeni, müasir binalar istifadəyə verilmişdir. Bakıda və regionlarda inşa olunan yeni məhkəmə binalarının bir üstün cəhəti də ondan ibarətdir ki, onlar inzibati və ictimai zonalara bölünürlər və hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulmuşdur. Hakimlərlə vətəndaşların birbaşa ünsiyyətinin məhdudlaşdırılması şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə baxımından mühüm addımlardan biri kimi dəyərləndirilməlidir.

Ölkə başçısının 2014-cü il 13 fevral tarixli “Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında” sərəncamı isə bu sahədə ötən illərdən başlanmış işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əlahiddə əhəmiyyətli sənəddir. Bunda məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin təminidir. Yeni sistem məhkəmələrə müraciətlərin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada qəbuluna imkan yaradacaq, nəticədə vətəndaşların şəxsən məhkəmələrə gəlmələrinə, poçt xidmətlərindən istifadələrinə ehtiyac qalmayacaq. Fürsətdən istifadə edərək respublikamızın ədliyyə işçilərini peşə bayramı münasibətilə təbrik edir, onlara ağır və məsuliyyətli işlərində müvəffəqiyyətlər arzu edirik.

Respublikamızın dinamik iqtisadi inkişaf etdiyi, insanların rifah halının yüksəldiyi son illərdə ölkənin məhkəmə-hüquq sistemi də yüksək dinamizmlə inkişaf edərək davamlı müasirləşmə mərhələsinə qədəm qoymuş, insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədinə çevrilmişdir. Ürəkdən inanırıq ki, Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti təsisatlarının inkişafına xidmət edən bu islahatlar qarşıdakı illərdə də inamla davam etdiriləcəkdir.

***Müseyib HÜSEYNOV,***
***1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin sədri***